AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının müdiri, i.f.d., dos.**
**E. Q. Məmmədov**

**«Qloballaşma və Beynəlxalq sosial iş»fənni üzrə**

# İŞÇİ TƏDRİS PROQRAMI

**(S İ L L A B U S)**

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | 00714 |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Fənnin tədris semestri:** | |
| **Payız Fənnin tədris forması:** | **əyni** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **-** |
| **Kafedra:** | **"İctimai idarəetmə və sosial innovasiyalar"** |
| **Tədris yükü:** | **30/30saat** |
| **Kredit sayı:** | **5** |

**Fənni tədris edən müəllim (lər):**

*dos. Sadıqov Bulud*

**E-mail ünvanı:** **bulud.sadiqov@mail.ru**

**İş telefonu:** 012-564-37-05

**Tələbələr üçün qəbul vaxtları:** II, IV günlər 10.00-11.00-dək

**Fənnin təsviri**

*«Qloballaşma və beynəlxalq sosial iş»* fənninin mövzuları, qloballaşmanın mahiyyəti və tarixi inkişafı, qloballaşmanın ölçüsü, qlobal sosial problemlər və onların həllində beynəlxalq sosial iş peşəkar təşkilatlarının rolu, beynəlxalq sosial iş peşəsinin əhatə dairəsi və məqsədləri, dünya ölkələrində mövcud olan sosial problemlər haqqında əsas məlumatları və bu problemlərin həlli ilə bağlı həyata keçirilən sosial siyasət və sosial iş müdaxiləsi məsələlərini özündə ehtiva edir.

Beynəlxalq sosial iş, praktikaya əsaslanan sosial dəyişiklik və inkişafı, sosial birliyi və insanların qabiliyyətlərinin inkişafını və azadlığını dəstəkləyən bir peşə və akademik intizamdır. Sosial ədalət prinsipləri, insan hüquqları, kollektiv məsuliyyət və fərqliliklərə hörmət beynəlxalq sosial işin mərkəzindədir. Beynəlxalq sosial iş cəmiyyətlərin demokratikləşməsində, inkişafında və sosial iştirakın təşviqində tənzimləyici rol oynayır. Müqayisəli sosial rifah, beynəlxalq təcrübələr, mədəniyyətlərarası bilik və anlayış, qlobal sosial problemlərə dair narahatlıq və fəaliyyətlər, sosial işçilər arasında kollektiv iş, peşəkar mübadilə fəaliyyətləri kimi bir sıra anlayışlardan istifadə edir.

Bu kursda dünyadakı sosial iş təcrübələrində istifadə olunan əsas anlayışlar, dünyada sosial iş tarixinin inkişafı və qlobal problemlər müzakirə olunur.

Sosial iş qərb cəmiyyətlərində modernizmin məhsuludur. Sosial problemləri həll etmək üçün bilik və elmdən istifadə edən idealist bir inancdan doğdu. Sosial iş düşüncə dəstinin yanında bir tətbiq sahəsidir. Sosial iş həm də sosial cəmiyyətlərdə dövlətin bir hissəsidir: ictimai rifah əsasında qurulur. Bu səbəbdən xidmətlər mənfəət gətirən və ya mənfəət götürməyən təşkilatlar tərəfindən təklif olunur və dövlət tərəfindən maliyyələşdirilir.

21-ci əsrdə qloballaşma sosial iş praktikasında və təhsildə dəyişikliklərə səbəb oldu və postmodernizmin universal bilik bazasının etibarlılığını sınadı. Çünki cəmiyyətlərin fərqli mədəni və sosial fərziyyələri var. Bu səbəbdən Qərb modeli sosial iş təcrübələrinin və təşkilatların dünyadakı sosial iş təcrübələrində praktik olaraq universal olub olmadığı sual altındadır.

Bənzərlik və fərqliliklər mərkəzində dünyada sosial iş tətbiqetmələrini öyrənməyi hədəfləyən bu kurs 15 mövzudan ibarətdir. Beynəlxalq sosial iş praktikasında istifadə olunan əsas anlayışlar, dünyada sosial işin inkişaf tarixi, Avropada, Amerikada, Avstraliyada sosial iş təcrübəsi sahələri, dünyada qlobal problemlər və həll yolları, Türkiyədə sosial iş tətbiqləri dəyərləndirilir. Həmçinin qlobal bir peşə olaraq sosial işin gələcəyi və beynəlxalq səviyyədə sosial işçinin məsuliyyəti müzakirə olunur. Burada əldə edilən məlumatlarla dünyada sosial iş təcrübələrini daha yaxşı başa düşmək və müqayisə etmək mümkün olacaqdır.

## II. Fənnin məqsədi və vəzifələri

Bu fənn müxtəlif ölkələrin sosial siyasətini araşdırır. Müxtəlif rifah modelləri təhlil edilir. Dövlətlərin sosial yardım əsnasında əməkdaşlığı, beynəlxalq rifah qanunvericliyi və beynəlxalq təşkilatların fəaliyyəti şərh olunur. Qloballaşmanın əhalinin rifahına təsiri, onun müsbət və mənfi meyilləri müəyyən edilir.

*Fənnin əsas məqsədi:* dünya ölkələrində sosial problemlərin həllində tətbiq olunan

beynəlxalq sosial iş metodlarını mənimsəyən və müxtəlif sahələrdə tətbiq edən peşəkar mütəxəssislər yetişdirməkdir.

Fənnin tədrisi qarşısında duran *vəzifələr* aşağıdakılardır:

- Qloballama və qlobal sosial problemlərlə bağlı geniş məlumat əldə etmək;
- Beynəlxalq sosial iş peşəsinin məqsəd və vəzifələrini öyrənmək;
- Sosial siyasətlə bağlı xarici təcrübə nümunələri ilə tanış olmaq;
- Müxtəlif ölkələrdə sosial iş tətbiqi metodlarını öyrənmək;

## III. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, keyslər və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqları formalaşdırması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlar həll edəcəklər.

## IV. Öyrənmənin nəticələri:

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

- Sosial işi beynəlxalq prizmadan başa düşür;
- Beynəlxalq sosial iş təcrübəsi ilə tanışdır;
- Qloballaşamanın sosial işə təsirini şərh edə bilir;
- Beynəlxalq insan ehtiyaclarını və problemlərini anlayır;
    - Beynəlxalq sosial iş standart və normalarını bilir;
    - Əhalinin müxtəlif qruplarının sosial müdafiəsi ilə bağlı beynəlxalq öhdəliklər və konvensiyalarla tanışdır;
    - Mürəkkəb beynəlxalq sosial problemləri və onların səbəblərini anlayır;
    - Qlobal sosial problemlərin sosial iş çərçivəsində həlli və bu istiqamətdə əməkdaşlıq istiqamətlərini bilir;
    - Sosial iş sahəsində beynəlxalq təşkilatların missiya və fəaliyyət istiqamətləri ilə tanışdır.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Dünyada sosial iş tətbiqlərində əsas anlayişları;
- Dünyada sosial iş tətbiqi üçün əsas modellər və onların xüsusiyyətlərini;
- Dünya müxtəlif ölkələrində: təhsil, səhiyyə, ədliyyə, sosial müdafiə və sosial xidmətlər sahəsində sosial iş texnologiyalarını;
- Beynəlxalq sahədə sosial iş durumunu, beynəlxalq sosial işçinin vəzifələrini və

sosial rifah siyasətinə təsir göstərən beynəlxalq sosial xidmət təşkilatlarının rolunu və funksiyalarını.

**Bacarmalıdırlar:**

- Beynəlxalq sosial iş sahəsində müxtəlif səviyyələrdə əhalinin müxtəlif qruplarına kömək üçün xüsusi layihələr hazırlamağı;
- Xarici ölkələrin sosial iş təcrübələrinə əsaslanaraq mövcud sosial problemlər üçün uyğun yanaşma və müdaxilə metodlarını seçmək və tətbiq etməyi;
- Qlobal səviyyədə ən kəskin iqtisadi və sosial problemləri müəyyənləşdirmək və düzgün şərh etməyi;
- Dünya ölkələri və Azərbaycan arasında sosial iş müqayisəsi aparmağı.

## V. Prerekvizitlər

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: yoxdur.

## VI. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

1. Qloballaşma anlayışı və qloballaşma ilə bağlı yanaşmalar
2. Qloballaşmanın tarixi inkişafı və səbəbləri
3. Qlobal problemlər, qloballaşmanın ölçüsü
4. Qloballaşma və sosial dövlət
5. Beynəlxalq sosial iş peşəsinin mahiyyəti, əhatə dairəsi və məqsədləri
6. Dünyada sosial iş tətbiqlərində əsas anlayışlar
7. Qlobal sosial problemlər
8. Dünyada sosial iş tətbiq sahələri
9. Türkiyədə sosial iş tətbiqləri
10. Avropada sosial iş tətbiqləri
11. Avropada rifah modelləri və sosial iş təcrübələri
12. ABŞ-da sosial iş tətbiqləri
13. Avstraliyada sosial iş tətbiqləri
14. Latın Amerikasında sosial iş tətbiqləri
15. Qlobal sosial problemlərin həlli: Beynəlxalq sosial iş peşəkar təşkilatlarının təqdimatı

## VII. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, müzakirə sualları və tapşırıqlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## VIII. Əsas dərslik və ədəbiyyat


**1.** Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.

2. Şenses, F. (2017) Küreselleşmenin Öteki Yüzü: Yoksulluk. İstanbul: İletişim Yayınları.
3. Bauman, Z. (2016) Küreselleşme: Toplumsal Sonuçları. Abdullah Yılmaz (Çev.), İstanbul: Ayrıntı Yayınları.
4. Acar, H. ve Duyan Çamur, G. (2003). Dünyada Sosyal Hizmet Mesleğinin Ortaya Çıkışı ve Gelişimi. Toplum ve Sosyal Hizmet, 14(1):1-18.
5. Adams, R., Dominelli,L. and Payne, M. (2015). Sosyal Hizmet-Temel Alanlar ve Eleştirel Tartışmalar. Tarık Tuncay (Çeviri Ed.).Ankara: Nika Yayınevi, 1. Baskı.
6. Aktan, M.C. (2013). Sosyal Politikaların Oluşturulması ve Uygulanmasında Bir Meslek ve Disiplin Olarak Sosyal Hizmetin Katkısı.Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyal Hizmet Bölümü. Ankara.
7. Barrientos, A. ve Santibanez, C. (2009). New Forms of Social Assistance and the Evolution of Social Protection in Latin America. Journal of Latin America Studies. 41 (1): 1- 26.
8. Bayar,F. (2008). Küreselleşme Kavramı ve Küreselleşme Sürecinde Türkiye. Uluslararası Ekonomik Sorunlar Dergisi, 32:25-34.
9. Bradley, D; Huber E; Moller, S; Nielsen, F; Stephens, J.D; (2003), "Democracy, Income Distribution, Political Science, Welfare", World Politics, Baltimore, 55 (2).
10. Can, M.(2013). Günümüz Refah Politikaları Bağlamında Sosyal Hizmetlerin Farklı Modelleri. Nobel Akademik Yayıncılık.
11. Güven, İ. (1999). "Küreselleşme ve Eğitim Dizgesine Yansımaları" Eğitim Bilimleri Fakültesi Dergisi, Cilt:32, Sayı:1-2, ss.145-159.
12. Healy, L. (2008). International Social Work: Professional Action in an Interdependent World -2nd Edition. UK:Oxford University Press.
13. Karataş, Z. (2015). Küresel Düzeyde Makro Sosyal Hizmet Uygulamaları. Manevi Temelli Sosyal Hizmet Araştırmaları Dergisi, 1(1):32-47
14. Özateş, Ö.S. (2007). Sosyal Hizmet Bakış Açısıyla Toplumsal Cinsiyet Ayrımcılığı Nedeniyle Temel Eğitimden Kopan Kız Çocukları Sorunu, Toplum ve Sosyal Hizmet, 18(2):77-87.
15. Özbesler, C., Duyan, V.(2009). Okul Ortamlarında Sosyal Hizmet. Eğitim ve Bilim. Cilt 34, Sayı 154
16. Cantekin, Ö. F. 2019, Avusturalya'da Sosyal Hizmet: Etik Değerler, Kurallar ve Uygulama Standartları, Üçüncü Sektör Sosyal Ekonomi Dergisi, 54(4), 1844-1856.
17. Peköz, M. (2012). Küresel kapitalizm ve göçmenler. İstanbul: Karakoyun Yayınları.
18. Toprak, D. (2015). Uygulamada Ortaya Çıkan Farklı Refah Devleti Modelleri

Üzerine Bir İnceleme. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Yıl: 2015/1, Sayı:21

19. Tireli ,M. (2009). Küreselleşme ve Yoksulluk: Birleşmiş Milletler (UNDP) ve Dünya Bankası Göstergeleri Işığında Bir Analiz. T.C. Başbakanlık Sosyal Yardımlaşma ve Dayanışma Genel Müdürlüğü Sosyal Yardım Uzmanlık Tezi, Ankara.
20. Sapancalı, F.(2001). Yeni Dünya Düzeni ve Küresel Yoksulluk. Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. Cilt 3, Sayı:2
21. Seçer, B. (2007). Amerika Birleşik Devletlerinde Çalışan Yoksullara Yönelik Sosyal Refah Politikaları. Kamu-İş. 9 (7), 137-164.
22. Ömer Faruk Cantekin (2019).“Amerika birleşik devletlerinde sosyal hizmet uygulamaları” Gazi Üniversitesi, Sağlık Bilimleri Fakültesi, Sosyal Hizmet Bölümü.
23. Şenkal, A., Sarıipek, D.B.(2007). Avrupa Birliği’nin Karşılaştırmalı Refah Modelleri ve Sosyal Politikada Devletin Değişen Rolü. Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (14) 2: 146-175
24. Tarcan, E.(2001). Küreselleşmenin Sağlık Üzerine Etkileri ve Sağlık İşletmelerinin Küreselleşme Süreci. Yönetim, Sayi 39, Mayis.29-43
25. Taşçıer, F. (2006). Küresel Bir Tehdit: Terörizm. Fen Edebiyat Fakültesi Felsefe Dergisi. Cilt-Güz, Sayı-7.
26. Yaman, Ö.M., Karakulak, K. ve Dağlar, F. (2015). Kavram ve Kuramlar Bağlamında Sosyal Hizmeti Anlamak-Bibliyografik Bir Değerlendirme (1950-2013). İstanbul: Açılım Kitap.
27. Özdemir, S. (2010) "Küreselleşme ve refah devletleri üzerindeki etkileri" Journal of Social Policy Conferences 0, 55-86.
28. Payne,M. and Askeland,G.A. (2008). Globalization and International Social Work (Contemporary Social Work Studies), UK: Ashgate Publishing.

## IX. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adları | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | **Qloballaşma anlayişi və qloballaşma ilə bağli yanaşmalar** | Qloballaşma anlayışının mahiyyəti. Qloballaşma ilə bağlı yanaşmalar:<br>1. Mütləq qlobalist yanaşma (Hiperglobalist),<br>2. Şübhəçi yanaşma (skeptik),<br>3. Təkamül yanaşması.<br>Castellsin informasiya dövrü və informasiya cəmiyyəti nəzəriyyəsi. | 1. Bauman, Z. (2016) Küreselleşme: Toplumsal Sonuçları. Abdullah Yılmaz (Çev.), İstanbul: Ayrıntı Yayınları.<br>2. Castells, Manuel; “Enformasyon Çağı: Ekonomi, Toplum ve Kültür, Ağ Toplumunun Yükselişi”, çev: Ebru Kılıç, 1. Baskı, İstanbul, 2005.<br>3. Hirst, Paul ve Thompson, Grahame; Küreselleşme Sorgulanıyor, |
| | | | 4. |

| | | | |
|---|---|---|---|
| 2 | **Qloballaşmanın tarixi inkişafı və səbəbləri** | Tarixi prosesdə qloballaşmanın inkişafı. Qloballaşmanın tarixi mərhələləri. Sosial qlobalizasiya prosesi. 1980-ci ildən sonrakı qloballaşma prosesinə təsir edən amillər. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Castells, Manuel; "Enformasyon Çağı: Ekonomi, Toplum ve Kültür, Ağ |
| 3 | **Qlobal problemlər, qloballaşmanın ölçüsü** | Qloballaşmanın ölçüləri: İqtisadi qloballaşma və nəticələri; Siyasi qloballaşma və nəticələri; Sosial-mədəni qloballaşma; Ekoloji qloballaşma; Texnoloji qloballaşma. Təhlükəsizlik problemləri. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Veysel Bozkurt Küreselleşmenin |
| 4 | **Qloballaşma və sosial dövlət** | Sosial siyasətin mahiyyəti və inkişafı. Sosial siyasəti yönləndirən fikir cərəyanları. İctimai müdaxilənin meydana gəlməsi və inkişafı. Sosial dövlət anlayışının mahiyyəti. Rifah dövlətinin tarixi inkişafı və xüsusiyyətləri. Rifah dövləti növləri. İnkişaf etməkdə olan ölkələrin inkişaf xüsusiyyətləri. | 1 Özdemir, S. (2010) "Küreselleşme ve refah devletleri üzerindeki etkileri". Journal of Social Policy Conferences: 55-86.<br>2. Hirst P. ve Thompson G. (1996), Globalization in Question, Polity Pres, Cambridge. |
| 5 | **Beynəlxalq sosial** | Sosial iş peşəsinin qlobal tərifi. Beynəlxalq sosial işin əsas prinsipləri. Sosial müdafiə | 1.Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada |

| | | | |
|---|---|---|---|
| | **iş peşəsinin mahiyyəti, əhatə dairəsi və məqsədləri** | sistemlərində sosial işin rolu: sosial müdafiə üçün universal hüquq. Beynəlxalq sosial işdə sosial işçilərin rolları. | sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2.Acar, H. ve Duyan Çamur, G. (2003). Dünyada Sosyal Hizmet Mesleğinin Ortaya Çıkışı ve Gelişimi. Toplum ve Sosyal Hizmet, 14(1):1-18. |
| **6** | **Dünyada sosial iş tətbiqlərində əsas anlayışlar** | İnsan hüquqları. Sosial ədalət. Sosial inteqrasiya (iştirak). Sosial təcrid. Sosial cinsiyyət. Ekoloji davamlılıq. Sosial rifah. Sosial siyasət. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Yaman, Ö.M., Karakulak, K. ve Dağlar, F. (2015). Kavram ve Kuramlar Bağlamında Sosyal Hizmeti Anlamak-Bibliyografik Bir Değerlendirme (1950- |
| **7** | **Qlobal sosial problemlər** | Yoxsulluq problemi. Təhsil problemi. Əhalinin çoxluğu və ətraf mühitdən pis istifadə: Əhali artımının səbəb olduğu problemlər, Əsas ekoloji problemlər. Sağlamlıq problemi. Miqrasiya problemləri. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Şenses, F. (2017) Küreselleşmenin Öteki Yüzü: Yoksulluk. İstanbul: İletişim Yayınları.<br>3. Sapancalı, F. (2001). Yeni Dünya Düzeni ve Küresel Yoksulluk. Dokuz |
| **8** | **Dünyada sosial iş tətbiq sahələri** | Tibbi sosial iş. Qocalıq (yaşlılıq): Gerontoloji sosial işin mahiyyəti və əsas prinsipləri. Əlillik və əlillərlə işləyən sosial işçilərin funksiyaları. Fəlakət və fövqəladə hallar. Cinsi oriyentasiya və LGBT şəxslər. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul<br>2. Altınova,H.H. ve Duyan, V.(2013). Toplumsal Cinsiyet Algısı Ölçeğinin Geçerlik Güvenirlik Çalışması. |
| **9** | **Türkiyədə sosial iş tətbiqləri** | Ailə və Sosial Siyasətlər Nazirliyi sosial iş tətbiqləri: Ailə və cəmiyyət üçün xidmətlər. Uşaq xidmətləri. Qadınlar üçün xidmətlər. Əlillər və yaşlılar üçün xidmətlər. Səhiyyə Nazirliyi sosial iş tətbiqləri. Ədliyyə Nazirliyi sosial iş tətbiqləri. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul<br>2. Aile ve Sosyal Politikalar Bakanlığı (2013). 2013 Yılı Faaliyet |
| **10** | **Avropada sosial iş tətbiqləri** | Almaniyada sosial iş tətbiqləri. Hollandiyada sosial iş tətbiqləri. Fransada sosial iş tətbiqləri. Belçikada sosial iş tətbiqləri. Avstriyada sosial iş tətbiqləri. İsveçdə sosial iş tətbiqləri. İngiltərədə sosial iş tətbiqləri. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Toprak, D. (2015). Uygulamada Ortaya Çıkan Farklı Refah Devleti Modelleri Üzerine Bir İnceleme. |
| **11** | **Avropada rifah modelləri və sosial iş təcrübələri** | Avropada rifah modelləri. Skandinaviya ölkələri rifah modeli. Anglo-Sakson ölkələri (Beveridge Modeli). Kontinental Avropa ölkələri (Bismark Modeli). Cənubi Avropa ölkələri (Əməkdaşlıq Modeli / Ailə əsaslı model). Finlandiyada sosial iş tətbiqləri. İtaliyada sosial iş tətbiqləri/ | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman<br>SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2.Can, M. (2013). Günümüz Refah Politikaları Bağlamında Sosyal Hizmetlerin Farklı Modelleri. Nobel |

| | | | |
|---|---|---|---|
| 12 | **ABŞ-da sosial iş tətbiqləri** | ABŞ-da sosial rifah xidmətləri. ABŞ-da uşaq qoruyucu xidmətlər. ABŞ-da sosial siyasət. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Ömer Faruk Cantekin (2019).“Amerika birleşik devletlerinde sosyal hizmet uygulamaları” Gazi Üniversitesi, Sağlık Bilimleri Fakültesi, |
| 13 | **Avstraliyada sosial iş tətbiqləri** | Avstraliyanın sosial quruluşu və dəyişimləri. Avstraliyada sosial iş təcrübələri. Avstraliyada sosial iş təhsili. Avstraliyada məktəb sosial işi. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>3.Cantekin, Ö. F. 2019, Avusturalya’da Sosyal Hizmet: Etik Değerler, Kurallar ve Uygulama Standartları, Üçüncü Sektör Sosyal Ekonomi Dergisi, 54(4), 1844-1856. |
| 14 | **Latın Amerikasında sosial iş tətbiqləri** | Latın Amerikasının inkişaf tarixi. Latın Amerikasında sosial quruluş və dəyişimlər. Latın Amerikasında sosial yardım və müdafiə. Braziliyada sağlamlıq və sosial təhlükəsizlik sistemləri. Braziliyada sosial siyasət. Braziliyada ev baxımı xidmətləri. Braziliyada uşaqlar və ailələr uçun xidmətlər. | 1. Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2. Çevik, B. (2002), Latin Amerika ve Karayipler: Temel Bilgiler ve Bakanlığımızın “Latin Amerika’ya |
| 15 | **Qlobal sosial problemlərin həlli: Beynəlxalq sosial iş peşəkar təşkilatlarının təqdimatı** | Beynəlxalq sahədə sosial işin vəziyyəti. Beynəlxalq peşəkar sosial iş təşkilatların məqsəd və vəzifələri. Qlobal sosial problemlərin həllində beynəlxalq təşkilatların rolu. Müasir Pandemiya şəraitində beynəlxalq sosial iş təqdimatları. | 1.Doç. Dr. Eda Purutçuoğlu, Uzman SHU Ecren Aydın (2015) Dünyada sosyal hizmet uygulamaları. auzefkitap.İstanbul.<br>2.Ozan Selçuk (2021) Sosyal Hizmet ve COVID-19: Salgın Sürecinde Sosyal Hizmet Mümkün Mü? Recep Tayyip Erdoğan Üniversitesi, Rize/Türkiye |

## X. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tədris semestr əsaslı təşkil oluncaq və bakalavr səviyyəsi üzrə qiymətləndirmə 100 bal üzrə 20+30+50 qaydasında həyata keçiriləcək. Burada 20 bal tələbənin aktivliyinə, 30 bal ara qiymətləndirmə və 50 bal yekun imtahanına aid ediləcək. Tələbələrin dərslərdə iştirakı ilə bağlı davamiyyət limiti tətbiq ediləcək, davamiyyətə görə bal verilməyəcək.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin

hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XI. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

## XII. Fənn üzrə qiymətləndirmə

**Biliyin qiymətləndirilməsi sistemi**

| | | |
|---|---|---|
| Tələbənin aktivliyi | 20 bal | 20% |
| Ara qiymətləndirmə | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual 1 baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, o Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**Tərtib etdi:** **i.e.n.,dos.Sadıqov B.C.**

**Kafedra müdiri:** **i.f.d.,dos. E.Q. Məmmədov**